# Tanınmış imzalar qəzetimizdə

## Musiqi tərbiyə vasitəsidir

**Fikrət ƏMİROV,**
**Azərbaycan SSR Xalq artisti,**
**bəstəkar**



Azərbaycan müəllimlərinin IV qurultayının keçiriləcəyini eşidib sevindim və bu qurultayla əlaqədər olaraq estetik tərbiyə haqqında öz mülahizələrimi yazmağı lazım bildim. Məlum olduğu kimi, böyüməkdə olan gənc nəslimizin estetik tərbiyəsi indiki dövrdə mühüm məsələlərdən biridir. İncəsənət və ədəbiyyatı hamı bilməlidir. Vəzifəsindən, rütbəsindən asılı olmayaraq ölkəmizdə bütün adamlar, demək olar ki, ədəbiyyat və incəsənətə böyük maraq göstərir. Bəstəkarlarla, yazıçılarla, rəssamlarla əlaqə saxlayır və məktublaşırlar. Musiqi isə daha populyardır və incəsənətin ən fəal növüdür.

Musiqini sevməyən adam tapılmaz. Xüsusilə, gənclik dövründə musiqini dinləməyə böyük həvəs yaranır və bu, olduqca təbii bir haldır. Lakin bəzi adamlar musiqiyə bir əyləncə vasitəsi kimi baxırlar. Bu, qətiyyən düz deyildir. Musiqi yalnız əyləncə yox, nəcib duyğular oyadan, incə, gözəl hisslər gətirən, insanı mənəvi cəhətdən yüksəldən, xəyalları coşduran, fikirlərə qanad verən ən gözəl tərbiyə vasitəsidir. Çaykovskinin, Raxmaninovun, Motsartın, Baxın, Ştrausun, Verdinin, Ü.Hacıbəyovun və başqalarının musiqisini dinləyin, nə qədər gözəl və xoş duyğular insanın qəlbini fəth edir. Görkəmli sənətkarlar həmişə öz əsərlərində yüksək bəşəri hissləri, dövrün, həyatın mühüm və ciddi məsələlərinə cavab verən böyük ideyaları tərənnüm etmişlər.

Məhz uşaqları, yeniyetmələri və gəncləri elə tərbiyə etmək lazımdır ki, musiqi onların həyatından ayrı olmasın, həyata, mübarizəyə səsləsin, çətin anlarda bir kömək vasitəsinə çevrilsin. Bir sözlə, bizim yeni nəsli yüksək zövqlü, həssas duyğulu, nəcib ruhlu adamlar kimi yetişdirməkdə musiqinin rolundan geniş istifadə etmək lazımdır. Bu, çətin, lakin şərəfli vəzifə, heç şübhəsiz, orta məktəb müəllimlərinin üzərinə düşür. Mən cəsarətlə deyərdim ki, bu, təkcə bir nəğmə müəlliminin və yaxud özfəaliyyət dərnəyinin rəhbərinin yox, bütün müəllimlərin vəzifəsidir.

Bəziləri etiraz edə bilərlər ki, belə şey ola bilməz. Ədəbiyyat müəllimi, tarix müəllimi hara, musiqi hara. Əlbəttə, məsələyə belə yanaşmaq düzgün deyildir. Uşaqları musiqiyə həvəsləndirməkdə, maraq oyatmaqda, istiqamət verməkdə, dünyagörüşlərini artırmaqda müəllimlərin rolu çox böyükdür.

Bir misal çəkim. Tutalım ki, ədəbiyyat müəllimi Füzulinin yaradıcılığını keçir. Əgər o, təkcə proqram materialını öyrətsə, dərslikdən əlavə şagirdlərə yeni bir məlumat verməsə, məncə, bu dərsi keyfiyyətli saymaq olmaz. Bu zaman müəllim hökmən şagirdləri Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasına aparmalıdır və bu opera haqqında onlara məlumat verməlidir. Bu, ikitərəfli əhəmiyyət kəsb edir, bir tərəfdən şagirdlər ədəbi materialı dərindən öyrənir, digər tərəfdən musiqini dinləyirlər. Məgər bunun faydası azdır? Yaxud, Puşkini keçərkən "Yevgeni Onegin" operasına baxmaq ancaq xeyir gətirər. Opera teatrı olmayan rayon və kəndlərdə isə müəllimlər radiodan geniş istifadə edə bilərlər. Məsələn, yenə Füzulidən "Şəbu-hicran yanar canım" şeirini keçərkən bəstəkar Cahangir Cahangirovun gözəl bəstələnmnş "Füzuli" kantatasından danışmamaq, radioda bu kantataya qulaq asmamaq olarmı? Müəllim hökmən bunu etməlidir. Müasir Azərbaycan şairlərinin yaradıcılığını keçərkən ədəbiyyat müəllimi onların şeirlərinə bəstələnmiş mahnılardan geniş istifadə edə bilər. Tarix müəllimi də tarixi mövzularla əlaqədar olan müxtəlif musiqi əsərlərinə uşaqlarda maraq oyatsa, dərsin keyfiyyətini artırmazmı? Bütün bunların isə faydası çox böyükdür. Əlbəttə, bu misalların sayını artıra bilərdim.

Uşaqlar ilk dəfə nəğmə ilə bağçada, daha sonra məktəbdə tanış olurlar. Bu tanışlıq çox sadədir. Müəllim əvvəl uşaqlara mahnının mətnini, sonra isə melodiyasını öyrədir, bütün sinif isə həmin mahnını xorla oxuyur. Lakin bəla burasındadır ki, məktəblərimizdə dərs deyən nəğmə müəllimlərinin əksəriyyətinin musiqi təhsili yoxdur. Hətta bəziləri bir-iki mahnı bilir, bununla da kifayətlənir, şagirdlərə heç nə öyrətmirlər. Hətta elə müəllimlər də vardır ki, oxumağı belə bacarmırlar. Eşitdiyimə görə, bir çox məktəblərdə nəğmə dərsləri "sükut" içində keçir. Buna dözmək olarmı? Məncə, həyatımızın inkişaf etdiyi belə bir dövrdə bu vəziyyətə son qoymaq lazımdır. Azərbaycan məktəblərində nəğmədən dərs deyən müəllimlərin savad məsələsini bir daha nəzərdən keçirmək, musiqi təhsilli yoldaşlardan istifadə etmək, musiqi məktəbləri ilə, mədəniyyət evləri və klublarla sıx əlaqə saxlamaq xüsusilə vacibdir.

V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ibtidai məktəb üçün müəllim hazırlayan fakültəsində tələbələrə musiqi təhsili verilir. Məncə, bu təhsil məhdud olmamalıdır. Geniş, hərtərəfli məlumat alan, musiqinin sirlərinə bələd olan gələcək müəllimlərə, eyni zamanda musiqinin tədrisi metodikası da öyrədilməlidir. O zaman məktəblərimiz hazırlıqlı müəllimlərlə təmin edilə bilər. Mən belə hesab edirəm ki, şəhər və rayonlardakı musiqi məktəblərində də musiqinin tədrisi metodikası ayrıca bir fənn kimi keçilməlidir.

Çox yaxşı olar ki, konservatoriyada ibtidai məktəb müəllimləri üçün təkmilləşdirmə kursları təşkil edilsin. Belə kursların əhəmiyyəti çox böyükdür. Bu kurslarda çətinlik çəkən nəğmə müəllimlərinə lazımı praktik və metodik yardım göstərilər. Kənd məktəblərində dərs deyən müəllimlər üçün isə rayon musiqi məktəblərində, yaxud rayon mədəniyyət evlərində belə təkmilləşdirmə kurslarına böyük ehtiyac var.

*"Azərbaycan müəllimi",*
*11 sentyabr 1960-cı il*

## Xoşbəxt o şagirdlərdir ki...

**Bəxtiyar VAHABZADƏ,**
**Xalq şairi**



İbtidai məktəbin IV sinfində "Kiqor" hekayəsini oxuyub hönkürtü ilə ağladığım bugünkü kimi hələ də yadımdadır. Mən uzun müddət bu hekayənin təsiri altından çıxa bilmədim. Şübhəsiz ki, bu hissi təsirdə ədəbiyyat müəllimimizin payı vardı.

Xatirəsi hər zaman mənim üçün əziz olan bu müəllim sadəcə dərs demirdi, o, bizim qarşımızda alışıb yanırdı. Bu müəllim Nizamini keçdiyi zaman Nizami, Sabiri keçdiyi zaman Sabir olurdu. Daha doğrusu, keçdiyi böyük sənət ustalarının dərdi ilə dərdləşir, sevinci ilə sevinirdi. Bu müəllimin təsiri ilə mən o zaman ədəbiyyatçı olacağıma inandım!

Beləliklə, şagirdin hələ orta məktəbdə ikən sənət seçməsində müəllim nüfuzunun və müəllim təsirinin çox böyük əhəmiyyəti var. Bu mənada "Azərbaycan müəllimi" qəzetində İmamverdi Əbilovun "Şəxsi nüfuz, cəmiyyət, tərbiyə" başlıqlı məqaləsi mənim çox xoşuma gəldi.

Məqalə müəllifi tamamilə haqlıdır. Məqaləni oxuyandan sonra mən bir anlıq ötən günlərə - şagirdlik illərimə qayıtdım. Əgər biz müəllim sözünün əzəmətinə və mənasına şagirdlərin gözü ilə baxsaq, o zaman bu sözün mənasını və mündəricəsini daha dərindən anlamış olarıq.

Çiynimizdə çanta və yaxud heybə məktəbə getdiyimiz, qarşımızda alışıb-yanan müəllimdən əlifbanın sirlərini öyrəndiyimiz, ikicə hərflə "ana" sözünü yaza bildiyimiz, bunu bacardığımız üçün öyündüyümüz o gözəl günləri xatırlayaq.

Ana - təbiətin, həyatın ilk beşiyi, doğma torpaq.

Ata - göylər, onların sirri.

Bu iki kəlmə ilə biz ibtidai şəkildə olsa da öz idrakımız çərçivəsində yerləri və göyləri dərk etməyə, daha mübhəm aləmlərə doğru ilk qədəmlərimizi atmağa başlayırıq. Öyrənmək, bilmək, dərk etmək, eşqi! Bu insanın nə qədər ali, nə qədər böyük hissidir! Bu hissi bizə aşılayan və əlimizdən tutub idrak dünyasına aparan müəllim, sənə eşq olsun! Sənin bizə öyrətdiyin ilk cümləyə bax: "Ata ot aldı".

Ata - yaradıcı, xaliq.

Ot - qida, həyat vasitəsi.

Aldı - fail, əmək, yaşamaq ehtirası.

Bir görün, bu bircə cümlə ilə müəllim bizə nələrdən xəbər verir. Bu cümləni bizə öyrətməklə müəllim gözümüzün qarşısında dünyanın əsasını, həyatın mənasını açmış olur. Yaşamaq! Yaşamaq üçün nə lazımdır? Zəhmət çəkmək, yaratmaq! Biz bu böyük fəlsəfəni ən ibtidai şəkildə müəllimlərimizdən öyrənmirikmi? Bəli, ən böyük fəlsəfənin belə ilki, bünövrə daşı "Əlifba" kitabından başlanır.

Bu elə böyük bir hikmətdir ki, bütün fəlsəfi cərəyanlar və məktəblər ilk mənbəyini buradan götürür, ilk müəlllim bizə bütün elmlərin və bütün sirlərin başlanğıc nöqtəsini öyrədir. Bizim ağlımıza işıq, əlimizə açar verir. Bax, buna görə də müəllim körpələr üçün nə qədər müqəddəs görünür! El misalıdır, deyərlər: "Uşaq atasından güclü, müəllimindən bilikli adam tanımır". Lakin vay o gündən ki, uşağın təsəvvüründəki bu böyüklüyü, bu müqəddəsliyi müəllim özü öz hərəkətləri ilə poza! Bunu heç bir müəllimə bağışlamaq olmaz! Mən hələ rayonda ibtidai məktəbin ilk siniflərində oxuduğum zaman müəllim haqqında belə böyük bir təsəvvürdə idim. Sinif müəllimimiz Şirəli müəllimi o qədər müqəddəs hesab edərdim ki, mənə elə gələrdi ki, o bizim kimi çörək yemir, su içmir. O, gündüzlər bizə dərs deyir, gecələr mələk olub göyə çəkilir...

Müəllim bu nüfuzu və hörməti necə qazanır? Mənə görə, ilk növbədə, biliyi və tədris etdiyi fənnə böyük və tükənməz məhəbbəti, ən ümdəsi də vətəndaşlıq hissi ilə. Nədir bu vətəndaşlıq hissi?

Özündən çox cəmiyyəti, ona tapşırılan böyük vəzifəni düşünmək! Cəmiyyətin xeyrini öz xeyrindən üstün tutmaq! Mən bunu da bilirəm ki, elə kəndlərimiz var ki, hələ də orda dərs şəraiti istənilən səviyyədə deyil, müəllim cəmiyyətin xeyrinə istədiyini elədiyi zaman bəzi hallarda çox böyük müqavimətə rast gəlir.

...Bizdə elə müəllimlər var ki, nə öz fənnini sevir, nə də qarşısında oturan körpə balaları, o, öz peşəsinin fəlsəfi mənasını, xidmətinin böyüklüyünü dərk edə bilmir. 45 dəqiqə dərs müddətində gözü saatda olan müəllim mənasız ötürdüyü dəqiqələrin ictimai mənasını, cəmiyyət üçün nə qədər böyük faydalar verə biləcəyini dərk edə bilmir!

Müəllim dərs dediyi körpə balaların hər birinin cəmiyyət üçün nə qədər faydalı ola biləcəyini düşünüb, onlara mənəvi ata gözü ilə baxmasa, onları nə üçün, kim üçün yetişdirdiyini bilməsə, bir sözlə sənətinin əhəmiyyətini və mən cəsarətlə deyərdim ki, bu sənətin bütün peşə və sənətlərdən üstün olduğunu dərk etməsə, dediyi dərsin nə mənası?! Bəli, mən deyərdim ki, hər sənətkar elə hesab etməlidir ki, onun işi bütün peşələrdən və sənətlərdən üstündür. Hər kəs öz işindən həzz almasa, onun gördüyü işin heç bir mənası və keyfiyyəti ola bilməz!

Müəllim dərs dediyi zaman unutmamalıdır ki, onun sözlərinə, sözlərinin gözəlliyinə, ahənginə və məzmununa 40-45 qulaq, hərəkətlərinə, geyiminə, davranışına 40-45 cüt göz diqqət yetirir, rəftarına, münasibətinə 40-45 ürək qulaq asır. Həm də bu ürəklər təqlidə meyillidir. Uşaq həmişə kimisə, nəyisə təqlid etməyi sevir... ağlına, rəftarına, insanlığına səcdə etdiyi ilk adam çox yaxşı olar ki, uşağın öz müəllimi olsun. Müəllimində təqlidə, pərəstişə layiq heç bir şey görə bilməyən şagirdlərin vay halına!

İftixar hissi ilə deməliyəm ki, indi bizim belə müəllimlərimiz çoxdur. Həmin müəllimlərdən biri bu müzakirəni açıb öz gözəl mühakimələri ilə məni də söz deməyə həvəsləndirən şəxsən tanıdığım İmamverdi müəllimdir. Bu gözəl insanın savadı, biliyi, qələmindəki qüdrət məlumdur. Mən isə həmin müəllimin şəxsiyyətini, xasiyyətindəki həlimliyi, nəcabəti, bir sözlə, əxlaqi gözəlliyi bütün müəllimlərə nümunə göstərib deyirəm:

İmamverdi müəllimin şagirdləri xoşbəxtdir! Çünki şagirdləri bu müəllimin həm savadını, həm də insaniyyətini təqlid edə bilərlər!

İdealı olan insan xoşbəxtdir, uşaqlıqda özünə öz gözəl müəllimini ideal seçən körpənin sonrakı idealını, sonrakı məsləkini gözləriniz qarşısına gətirin. Uşaq öz müəllimindən yalnız quru fənni yox, həm də əxlaq dərsi öyrənərsə, müəllimini təqlid edə-edə onda hələ körpəlikdən gözəl insani sifətlər tərbiyə olunar. İlk tərbiyə asan, yenidən tərbiyə isə çox çətin olur. Bir sözlə: xoşbəxt o şagirdlərdir ki, onların müəllimləri sözün geniş mənasında təqlidə, pərəstişə layiqdirlər!!!

Mən şairəm, həm də müəllim! Şairliyimdəki qüsurları tənqidçilər deyir. Bu qüsurların bir çoxu mənim öz üzərimdə az işləməyimdən, öz sənətimə kifayət qədər can yandırmamağımdan irəli gəlmir, bir sözlə bu qüsurlar məndən asılı deyil, daha doğrusu, bu təbiətin mənə bəxş verdiyi istedadın mənim və mənim tənqidçimin arzusundan az olduğunu göstərir. Ancaq müəllimlikdəki qüsurlarım mənim özümdən asılıdır. Bu, ya savadımın, ya da zəhmətimin azlığından irəli gəlir. Buna görə də şairlikdəki qüsurlarımı müəyyən qədər özümə bağışlasam da müəllimlikdəki qüsurları bağışlaya bilmərəm.

Əziz müəllimlər! Gəlin, özümüzə qarşı ən böyük ittihamçı özümüz olaq! Çünki adımız öyrənən deyil, öyrədəndir, müəllimdir!

*"Azərbaycan müəllimi", 19 aprel 1969-cu il*

**Arxiv materiallarını araşdırdı: Oruc MUSTAFAYEV**